**UOT 82-32**

# FƏXRİ UĞURLUNUN "ŞEYX SƏNAN" HEKAYƏSİ VƏ KLASSİK ƏNƏNƏ

**Kamalə ZEYNALLI-İSLAMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 5 dekabr 2024; çapa qəbul edilmişdir: 11 fevral 2025; online-da çap edilmişdir: 19 mart 2025.
Received: 5th of December, 2024; accepted: 11th of February, 2025; published online: 19th of March, 2025.

**Açar sözlər:** *klassik ədəbiyyat, təsəvvüf, ilahi eşq, Şeyx Sənan, Fəridəddin Əttar, Hüseyn Cavid, Fəxri Uğurlu*

## Giriş

Arxetipik motivlərdən müxtəlif xalqların, o cümlədən Şərq xalqlarının ədəbiyyatında geniş şəkildə işlənmişdir. "Şeyx Sənan" motivi onlardan biri olub, IX-X əsrdən başlayaraq müasir dövrümüzə qədər müxtəlif ədəbi janr və aspektlərdə istifadə edilmişdir. Fəridəddin Əttarın "Məntiqüt-teyr" məsnəvisində yer alan hekayə; Molla Camal Rəncinin "Hekayəti-Şeyx Sənan məə düxtəri-tərsa" mənzum hekayəsi; müəllifi məlum olmayan "Şeyx Sənan" məsnəvisi; Mehdi bəy Hacinskinin "Şərq əfsanələri" silsiləsindəki "Şeyx Sənan" əfsanəsi; Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi və nəhayət, Fəxri Uğurlunun "Şeyx Sənan" hekayəsi – bu motiv əsasında yazıya alınmışdır.

Fəridəddin Əttarın "Məntiqüt-teyr" əsərində Şeyx Sənan hekayəsi sufi düşüncəsinin bir parçası kimi təqdim edilir. Burada əsas vurğu insanın məhəbbət vasitəsilə mənəvi yetkinliyə çatmasına yönəlmişdir. Molla Camal Rəncinin versiyasında isə motivin təsir dairəsi daha çox etik və dini məsələlər ətrafında qurulmuşdur. Müəllifi məlum olmayan "Şeyx Sənan" məsnəvisi də bu xəttə yaxın olub, sufizmin eşq anlayışını və onun insan üzərində yaratdığı təsirləri ön plana çıxarır.

XX əsr Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi bu motivə yeni fəlsəfi çalarlar qatmışdır. Cavidin əsərində Şeyx Sənanın daxili mübarizəsi, insan azadlığı, eşq və dini fanatizm kimi mövzular işlənmişdir. Müasir dövrdə isə Fəxri Uğurlunun "Şeyx Sənan" hekayəsi bu motivi yenidən aktuallaşdırmış və fərqli baxış bucağından təqdim etmişdir.

Motivin əsasını dindar şeyxin xristian dininə mənsub bir qadına qarşı yaranan sevgisi və bu sevginin təsiri ilə öz dini mənsubiyyətindən uzaqlaşması əks etdirir.

## 1. Mənəvi təkamüldə eşq və dini ziddiyyət

Təsəvvüf və irfanla bağlı mövzular orta əsrlər Azərbaycan ədəbiyyatında xüsusi yer tutur. "Təsəvvüf təriqətlər və məşhur şeyxlər vasitəsilə islam dünyasında yayılan və əsrlər boyu öz təsirini davam etdirən bir düşüncə və etiqad sistemidir" [12, s. 37]. Müxtəlif növ və janrlarda yaranan təsəvvüf və irfana dair əsərlərdə nəcib insani duyğular, dini və ya milli ayrı-seçkilikdən yüksəkdə dayanan bəşəri problemlər tərənnüm edilir.

---

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* zeynallikemale58@gmail.com
*ORCID*: 0009-0008-4029-5292
**https://doi.org/10.30546/25194011.2025.14.1.026**

Şeyx Sənanın şəxsiyyəti, tarixi və ya əfsanəvi şəxs olması barədə çoxlu sayda fikir müxtəlifliyi mövcuddur. Hüseyn Bayqaranın dedikləri, Şeyx Sənanın tarixi şəxsiyyət olması və Əttarın mürşidi olduğu iddiasını dəstəkləyir: "Deyirlər ki, o, həzrətin əyninə irşad xirqəsini geydirən Şeyx Sənan olmuşdur" [5, s. 6]. Z. Əkbərov yazır: "Əttarın tərcümeyi-halından bəhs edən Şərq təzkirələrində onun sufiliyə başladıqdan sonra, Beytül-həramı ziyarət etməsi, Ərəbistanda bir çox məşhur sufi mürşidləri ilə görüşməsi haqqında da yazmışlar" [5, s. 7-8].

Şərqdə təsəvvüf və irfana dair əsərlərin ən geniş yayılmış nümunələrindən biri "Şeyx Sənan" hesab olunur. "Şeyx Sənan" hekayəsini ilk dəfə ədəbiyyata XII-XIII əsrlər məşhur İran sufi şairi Fəridəddin Əttar Nişapuri gətirmişdir. Vəhdəti-vücud fəlsəfəsi əsasında yazılan "Şeyx Sənan" hekayəsi Əttarın fars dilində yazdığı "Məntiqüt-teyr" məsnəvisində keçən hekayələrdən biridir. Bu hekayət öz gözəl bədii üslubu və dili ilə yanaşı, dərin fəlsəfi-arifanə mənası ilə də diqqəti cəlb edir [1, s. 64].

Hekayədə Şeyx Sənan Kəbədə təkliyə çəkilmiş, dörd yüz müridi olan, ömrünün əlli ilini hərəmdə keçirmiş dövrünün mötəbər, kamil şeyxi idi. Hər kəsə yol göstərən, çarəsizlərə çarə tapan, xəstələr yanında şəfa tapan zahid idi. Şeyx bir neçə gecə eyni yuxunu görür. Yuxusunda Kəbədən Ruma gedərək bir bütə səcdə edir. Yuxusunun təsirindən çıxa bilməyən zahid yuxusunu müridlərinə danışır və dörd yüz müridi ilə birlikdə Ruma səfərə çıxır. Səfərdə müridləri ilə gəzən şeyx günlərin birində xristian bir qızı görür və ona aşiq olur. Şeyx tərsa qızına olan sevgisindən dinindən, imandan və əqidəsindən keçir. Gözünə yuxu getməyən şeyx bir aya yaxın gözyaşı töküb, Allaha yalvarır, ondan kömək diləyir:

*Ağıl getdi, səbir getdi, yar getdi,*
*Bu nə eşqdir, bu nə dərddir, bu nə iş* [1, s. 67].

Qızın eşqi Şeyxin qəlbini yandırıb-yaxır. Şeyx gözələ qəlbini açaraq, ona öz eşqini bəyan edir. Qız şeyxin yaşını yada salır, lakin şeyxin israrı qarşısında ona dinindən keçməyi, şərab içib, quranı yandırmağı, "zünnar" bağlamağı şərt qoyur. Tərsa qızına bütün tələblərini yerinə yetirəcəyini söz verən Şeyxi kilsəyə aparırlar. Müridlərin ah-fəğanına etina etməyən Şeyx şərab içməyi qəbul etsə də, digərlərini qəbul etmir. Şərab içən Şeyx onun təsiri ilə zünnar bağlayır, dərviş xirqəsini yandırır [7, s. 206].

Şəhla Abdullayeva yazır: "Şeyx Sənan özü nəfsin xətərindən xəbərdardır. Buna görə o, gördüyü yuxunun nəfslə qarşılaşmağa işarə olduğunu anlayır və bu səbəbdən də məhz bu xətərin aradan qaldırılması üçün yola çıxmağı, öz nəfsi ilə mübarizədən qaçmağı deyil, bu ağır mübarizəyə atılmağı qərara alır. Bu yuxudan öncə şeyx sanki kor-koranə etiqad edirdi, onun dindarlığı zahiri dindarlıq idi. Yuxu görməklə Şeyx Sənan həqiqi seyrü süluka qədəm qoyur" [1, s. 83].

Əttar mötəbər bir şeyxin başına gələnlərə istinad edərək, burada dövrün bəzi zahid və şeyxlərini də xəbərdarlıq etmək istəmişdir. Bəzi şeyxlər özlərini dində möhkəm, imanda sarsılmaz və özlərini digər insanlardan Allaha daha yaxın hesab etdikləri üçün Əttar onların gözünü açmağa çalışmışdır [8, s. 33].

Ədəbiyyat tariximizdə dəfələrlə müraciət olunmuş "Şeyx Sənan" motivinə XX əsrin əvvəllərində Azərbaycan romantizminin əsas yaradıcılarından biri olan H.Cavid müraciət edərək Şeyx Sənan faciəsini yazdı. "Şeyx Sənan" faciəsi insanın dini və milli kimliyindən yüksələrək ümumbəşəri dəyərlərə doğru can atmasını ön plana çıxarır. Təsəvvüfün müasir şərhi olan əsərdə müəllif aktual bəşəri problemləri tarixi mövzuya daxil etmişdir.

Əsərdə, dini problemlərə toxunulması, Ə.Ağayevin yazdığı kimi, Sovet dövründə onun dini və milli ayrı-seçkilik, dini təəssüb və ümumiyyətlə, din əleyhinə yazılmış bir

əsər kimi tanınmasına səbəb olmuşdur [2, s. 140]. "Şeyx Sənan" əsərində ilk baxışda bütün təriqətlərə üsyan vardır, çünki həmin təriqətlərin yaratdığı qadağalar insanların iztirabına səbəb olur. Lakin Z.Yağmura görə, bu əsərdən aydın görünür ki, insana İlahidən göndərilən qanunlar yox, insanların özlərinin yaratdıqları ayrı-seçkiliklər əzab verir [10, s. 62].

"Şeyx Sənan" faciəsi müsəlman şeyxi Sənan və xristian-gürcü qızı Xumar arasındakı sevgidən bəhs edir. Faciədəki hadisələr əvvəlcə Mədinədə, Şeyx Kəbirin evində başlanır. Şeyx Sənan qəribə bir yuxu görür. Yuxusunu müridi Şeyx Kəbirə danışır:

*Ey böyük Şeyx! Gördüm ətrafı*
*Sarıyor incə, xoş bir aydınlıq.*
*Gecənin sanki xəndeyi-safi*
*Saçıyor kainatə bayğınlıq.*
*Ruhu təsxir edən gözəl məntab,*
*Dəmbədəm nəşr edərdi mevceyi-nur,*
*Gəldi bir şeyx o dəm yüzündə niqab ,*
*Bəni ta gördü, oldu pək məsrur.* [3, s. 117]

Şeyx Kəbir ona gələcəkdə dünyada məşhur ruhani olacağını, lakin bu məşhurluğun uzun çəkməyəcəyini söyləyir. Şeyx Sənana Turanda doğulduğunu, elm ardınca Ərəbistana gəldiyini, son nəfəsini Gürcüstan torpağında verəcəyini bildirir:

*Lakin ən son yerin, zəki Sə'nan*
*Olacaq son nəfəsdə Gürcüstan.*
*Qapılıb hissə olmasan gümrah,*
*Olacaq məqbərin ziyarətgah [3, s. 120].*

H.Cavidin bu faciəsinin baş qəhrəmanı Sənandır. Şeyx Sənan yüksək mənəvi dəyərlərə sahib, dini qaydalara sadiq və xalq arasında hörmət sahibi sufi şeyxi və mənəvi cəhətdən kamil insandır. Eyni zamanda Sənan azadlığı sevən, hər işdə ağlına arxalanan insandır. Əsas hədəfi Xumara qovuşmaq olan Sənanı tutduğu yoldan heç kim və heç nə döndərə bilmir. Çünki Xumar şeyxin Haqqa çatması üçün bir vasilədir və bu vasilə Sənanı həqiqətə yüksəldir [6, s. 154].

Şeyx Sənan faciəsinin ikinci əsas qəhrəmanı Xumardır. Xumar imtiyazlı təbəqəyə mənsub bir gürcü ailəsində doğulmuşdur. Xumar da Sənan kimi əzilənlər cəbhəsində dayanmışdır. Z.Əkbərova görə, Xumarın faciəsinə səbəb təəssübkeşlik, xristianlıq və ona əsaslanan ailə münasibətləridir [5, s. 50]. Xumar yaşadığı cəmiyyətdə sıxılan, həyatdan zövq almayan, həyatını kədər bürümüş biridir. Bu sıxıntılar Şeyx Sənanla qarşılaşmasından sonra öz yerini həyat sevgisinə vermişdir. Şeyx Sənanı tanıyana qədər Xumar heç kəsə könül verməmiş və anasının ölərkən ona söylədiyi vəsiyyətə sadiq qalmışdır.

**2. "Şeyx Sənan" yeni kontekstdə**

"Şeyx Sənan" motivi əsasında sonuncu yazılmış əsər çağdaş Azərbaycan nəsrinin nümayəndəsi Fəxri Uğurlunun qələminə məxsusdur. Yazıçının hekayə janrında yazdığı əsərin alt tekstoloji qatında Hüseyn Cavidin arxetipləşdirdiyi Şeyx Sənan obrazı ilə qarşılaşırıq. Fəxri Uğurlu dahi sələfinin yolunu davam etdirərək Şeyx Sənanı – ilahi eşq sahibi mərtəbəsinə yüksəldir. Hekayə sufi mistisizminin və eşqin ilahi məna qatlarının əks etdirildiyi zəngin bədii və fəlsəfi dərinliyə malik bir əsərdir.

Fəxri Uğurlunun Sənanı Türküstanda doğulmuş, otuz üç yaşlı xalq, həmçinin

müridləri arasında hörmət sahibi sufi təriqətinin başçısıdır: "otuz üç yaşı olsa da, şeyx evlənməmişdir, yer üzündə nə kişi, nə də qadın, nə dindar, nə də kafir qanı tökmüşdü, Qırmızı dənizdən Qara dənizə qədər dalğası vuran, min-min yolçusu olan, xəlifənin özünün də sayıb-çəkindiyi sufi təriqətinin başçısı idi, üstəlik, dedikləri, yaydıqları Məryəm oğlunun sözlərinə çox bənzəyirdi".

Şeyx Sənan Azərbaycan ədəbiyyatında mənəvi axtarışın simvoludur. O, həyatın mənasını, ilahi həqiqəti və mənəvi kamilliyi tapmaq üçün səy göstərən bir sufidir. Bu axtarış, onun bütün hərəkətlərinin və qərarlarının mərkəzindədir. Sufi düşüncəsinə görə, bu axtarış, insanın Allahla birləşməyə çalışmasının təzahürüdür.

Axtardığını Türküstanda tapmayıb müxtəlif yerlərə səfərlər edərək Allahı axtarmış, suallarına cavab tapmadığı üçün Ərəbistana pənah gətirmişdir. Onda o, "yüz iyirmi dörd min yəhudiyə görünüb onlarla dostluq, qardaşlıq eləyən Allahdan ayrı-seçkilik saldığına görə" inciyib küsərək Bağdada yollanmışdır [9, s. 39].

Şeyx Sənanın sevgi uğrunda etdiyi fədakarlıqlar hekayənin əsas mövzulardan biridir. Hekayədə Şeyx Sənan sevdiyi qadın üçün hər şeydən imtina etməsi və sonunda bu eşqdə özünü tapması sufi düşüncəsinin əsas prinsiplərindən birini əks etdirir: "Eşq yolu ilə Tanrıya qovuşmaq".

Hekayədə Şeyx ilahi həqiqətə qovuşması üçün sınaqlardan keçməli olur. Qonaqlar üçün təşkil olunmuş məclisdə ancaq donuz ətindən hazırlanmış yeməklər və çaxır qoyulur. «Biz sufiyik, xanım,- Şeyx Sənan çaxırdan bir qurtum alıb demişdi, bizim üçün din də, şəriət də keçilmiş yoldu. Bizim sıramıza yəhudiyə, xaçpərəstə, kafirə, bütpərəstə də yer var» [9, s. 34], – deməklə hansı dinə mənsub olmasından asılı olmayaraq, hamıya hörmətlə yanaşıldığını bildirir. Təşkil olunmuş qonaqlıq Tamaraya gələcək yolunu və mövqeyini müəyyənləşdirmək, eyni zamanda Şeyx Sənanı sınamaq üçün də bir vasitədir.

Həm Şeyx Sənan, həm də müridləri «Ürəyini sıxma, xanım,- şeyxin ardınca müridlər də süfrəyə əl uzatmışdılar, -yemək, içmək bizim könlümüzü bulandırmaz, olsa-olsa, gövdəmizə vəlvələ salıb başımızı bədənimizə qatar» [9, s. 34],- deyə bildirirlər.

«Şeyx Sənan islamdan dönüb boynundan xaç asmalı, adını dəyişməli, yeddi il knyaz İraklının donuzunu otarmalıydı. Yalnız bundan sonra o, sınaqdan çıxmış sayılıb knyaz qızına tay ola bilərdi» [9, s. 41-42 ], – deyən keşişlər Sənanın qarşısına şərt qoyurlar. Tamaraya qovuşmaq üçün o, dinini dəyişməyi və xristianlığı qəbul etməyi qəbul edir. Bu eşq onun dini mənsubiyyətinə qarşı sınaq olur və bu sınaqdan keçmək üçün daxili mübarizə aparır.

Şeyx Sənan Tiflisdə tərsa qızını görənə qədər Allahı tapdığına inanırdı. Lakin o Tamaraya dərin məhəbbətlə bağlandığı üçün İslam dininin şərtlərini pozmalı olur. Bu şərtlər H.Cavidin "Şeyx Sənan" motivi əsasında yazılmış faciəsindən fərqlənir:

Faciədə əks olunan Qurani-Kərimi yandırmaq şərtinə F.Uğurlunun hekayəsində toxunulmur. Faciədə keşiş Şeyx Sənana Quranı yandırması üçün təkid edir. Lakin şeyx bununla razılaşmayıb Quranı yandırmır. Quranı yandırmama səbəbini isə müqəddəs kitabda İsa Məsihin və Məryəmin adlarının keçməsidir.

*Hökmi- Qur'anı tutmayan məğrur,*
*Onu atəşdə yaqmış-rədd olunar.*
*Bir də bihudə etdiyin israr,*
*Buna İsa və Məryəmin adı var.* [3, s. 169]

Hər iki əsərdə şərt olaraq, donuz otarmaq və xaç açmaq göstərilmişdir. Hüseyn Cavidin faciəsində donuz otarmaq üçün təyin edilmiş vaxt iki il olduğu halda, F.Uğurluda bu vaxt yeddi il təyin edilmişdir.

Donuzlara çobanlıq etmək İslam dinində qəbul edilməyən bir şeydir. Lakin dərin

dini və mənəvi dəyərlərə sahib müsəlman şeyxin donuzları otarmaq təklifini qəbul etməsi, onun Allaha qovuşmaq yolunda bütün mənəvi dəyərlərindən keçdiyini göstərir.

H.Cavidin faciəsində Şeyx Sənan çox sevdiyi Xumarını itirir:

*Ruhum, ey qönçəyi-bahar Xumar!*
*Nazənin dilbərim Xumar, Xumar!*
*Sən niçin böyle duyğusuz qaldın?*
*Nə çətin yerdə uyquya daldın?* [3, s. 230]

Xumar uçurumun kənarında da xilas olmaq, qaçmaq arzusu ilə çırpınır. Onun intiharı səadətinə və azadlığına mane olan mövhumata cəhalətə, məzhəb və din ayrılığı toxumunu səpən keşişlərə, plotonlatlara, bir sözlə, bütün rəzalət dünyasına qarşı üsyan kimi səslənir [4, s. 93].

Hekayədə isə Şeyx Sənan və Tamara bu yalançı toyu dağıtmaq üçün monastıra üz tuturlar. Faciədə içki düşkünü olan atasına görə monastıra sığınan Xumar Sənanın eşqi ilə heç nədən çəkinmədən onun ardınca ölümə gedir [4, s. 93]. Digər eyniadlı əsərlər qəhrəmanların ölümü ilə nəticələnsə də, hekayədə qəhrəmanlar qovuşacağı günü hələ də gözləyirlər: «Tiflisdən yeddi dağ aralı monastırda Tamara Şeyx Sənanı bu günəcən gözləyir. O vaxtdan neçə-neçə nəsil dəyişib, yer neçə lay gətirib, göy neçə qat bağlayıb, gürcü çarlığı neçə yol yıxılıb-qalxıb, Tiflis əldən-ələ keçib, knyaz İraklinin sümüyü də çürüyüb… Tamaranın fələyin bu işlərindən xəbəri yoxdur. O, Şeyx Sənanı gözləyir» [9, s. 49].

"Şeyx Sənan" hekayəsində yer alan rəqəmlər, sufi təfəkkürün simvolik dildə ifadə edilmiş mənalarını təmsil edir. Hekayədə bir neçə simvolik rəqəm mövcuddur, həmin rəqəmlərin bəziləri aşağıdakı kimi təfsir olunur:

*1.Yeddi (7):* Sufi düşüncələrində bütövlüyü, mənəvi saflığı simvolizə edir. Hekayədə yeddi, Şeyx Sənanın ruhani inkişafın 7 mərhələlərini təmsil edir. Bunlar, nəfsin saflaşması, təmizlik, təvazökarlıq, qəlbən təslimiyyət, ürək aydınlığı, mənəvi yüksəliş və Allahla birləşmə mərhələsidir. Hekayədə də mərhələlərin təsiri hiss olunur. Hekayədə Sənanın sevdiyinə qovuşması üçün qoyulan şərtin yerinə yetirilməsi müddəti 7 ildir. Bu, onun ruhani inkişafında mənəvi təmizlənmə, sınaq və inkişaf müddətini simvolizə edir.

2. *Otuz üç (33):* Otuz üç rəqəminin istifadəsi həm dini, həm də fəlsəfi simvolizm baxımından əhəmiyyətlidir. Hekayədə Şeyx Sənanın otuz üç illik həyatında keçirdiyi yolçuluq, onun ruhani yüksəlişini və kamilliyə çatmasını simvolizə edir. Otuz üç rəqəmi, cənnət yaşını və əbədi həyatı işarə etdiyi üçün, Şeyx Sənanın mənəvi saflığı və əbədiyyətə olan yaxınlığını da ifadə edə bilər.

Hekayədə diqqət çəkən motivlərdən biri dağ motividir. Dağlar ən qədim zamanlardan bəri tanrıların və ruhların yaşadığı yer hesab edilmiş, məhz buna görə də insanlar Tanrıya daha yaxın olmaq üçün dağlara böyük önəm vermişlər.

İnsanların dağları müqəddəs qəbul edib, onlara müəyyən məna yükləmələri qədimdən bəri müxtəlif mədəniyyətlərdə və dinlərdə müşahidə olunmuşdur [11, s. 166]. İslamda Tur dağı Musa peyğəmbərlə Tanrının danışdığı yer kimi müqəddəs sayılır. Türk və monqol mifologiyasında Altay dağları müqəddəs hesab olunur, göy tanrısı Tenqri ilə insanlar arasında körpü sayılırdı. Yakut folklorunda Tanrının yeddi qatlı bir dağ üzərində yaşadığına inanılmışdır. Monqolların inancına görə, göydə yaşayan İlahinin dünyadakı yerləri dağlar olaraq görülmüşdür [11, s. 168].

"O yaz gecəsi onlar Kürdən güneyə doğru yeddi dağ aşmalıydılar. Yeddinci dağın ətəyində, qalın meşə içində Tanrı adına bakirə qızlar bəsləyən bir monastır vardı- Şeyx Sənan dan üzü Tamaranı monastıra tapşırıb, böyük toya hazırlaşmaq üçün Bağdad sarı yol almalıydı…" [9, s. 49] – buradakı dağ aşmaq insanın həyatında yeni hədəflərinə

çatmasını, istək və arzularını özündə birləşdirir. Şeyx Sənanın Tamaranı monastıra aparması sanki onun ruhi təmizlənməsini istəməsidir. Çünki monastır saflığın, təmizliyin qorunduğu məkandır.

**Nəticə**

Sonda bu nəticəyə gəlirik ki, Azərbaycan ədəbiyyatında "Şeyx Sənan" mövzusunda yazılmış əsərlərdən sonuncusu Fəxri Uğurluya aiddir. Bu hekayə Azərbaycan ədəbiyyatında klassik ənənələrin müasir ruhda şərhinə nümunədir. Fəridəddin Əttar və Hüseyn Cavid kimi klassiklərin əsərlərindən fərqli olaraq, müəllif dəfələrlə müraciət olunmuş «Şeyx Sənan» motivinə yeni nəfəs verir, onu yenidən yozur. Əsər yeni üslub və fərqli süjetdə yazılsa da, burada da Fəridəddin Əttardan başlayaraq, XXI əsrədək yazılmış Şeyx Sənan motivli əsərlərin əsas ideyasının izlərinə rast gəlinir.

## ƏDƏBİYYAT


1. Abdullayeva Ş. Azərbaycan ədəbiyyatında **"**Şeyx Sənan**"** mövzusu. Bakı**:** Elm və təhsil, 2015, 302 s.
2. Ağayev Ə. Sənətkarlıq məsələləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1962, 167 s.
3. Cavid H. Əsərləri. 5 clddə. II cild. Bakı: Lider nəşriyyat, 2005, 352 s.
4. Cəfərov Ş. Hüseyn Cavidin qadın qəhrəmanları. Bakı: 2015, 123 s.
5. Əkbərov Z. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977,148 s.
6. Əsgərzadə L. Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında / Hüseyn Cavid irsi və müasir dövr. Məqalələr toplusu. Bakı: Elm, 2007, 178 s.
7. Əsgərzadə L. Şeyx Sənan mövzusunun yayılma trayektoriyası: Əlişir Nəvai. Müqayisəli ədəbiyyatşünaslıq, №1, 2020, 202-211 s.
8. Nağısoylu M., Abdullayeva Ş. Anonim "Şeyx Sənan" mənzum hekayəti. Bakı: Elm və təhsil, 2016, 202 s.
9. Uğurlu F. Hekayələr. Bakı: Əli və Nino, 2010, 327 s.
10. Yağmur Z. İnsan axtarışında. Bakı: Günəş, 1998, 126 s.
11. Baş M. Dinlerde ve Geleneksel Türk Inanışlarında Dağ Kultu, Çukurova Üniversitesi İlahiyyat Fakültesi Dergisi, 2013, 13(1), 165-179 s.
12. Mengi M. Eski Türk Edebiyatı Tarihi. Ankara: Akçağ, 2005, 271 s.


***Резюме***

***Камала Зейналлы Исламова***


***История почетного успеха «Шейха Санана» и классическая традиция***

При изучении и анализе классической и современной азербайджанской литературы мы наблюдаем поэтику отдельных литературных типов и жанров, вопросы оценки их тематических и стилистических особенностей в общем литературном контексте. В этом смысле в творчестве Фахри Угурлу возникает серьезная необходимость изучения пути современной поэтической мысли на фоне общетеоретических проблем нашей литературы. В его произведениях можно наблюдать синтез традиционной поэтики. наследие и современный литературный стиль. В статье будут проанализированы цитаты, созданные Фахри Угурлу, которые являются представителями азербайджанской и персидской классической литературы, опираясь на творческое наследие таких мастеров, как Фаридуддин Аттар, Гусейн Джавид.

Повесть представителя постмодернистской азербайджанской прозы Фахри Угурлу «Шейх Санан» важна в современной азербайджанской литературе с точки зрения художественной переработки классического поэтического наследия. Постмодернизм обычно подходит к классическому наследию через пародию, критику или деконструкцию. «Деконструкция» – подход, направленный на критику структуры текстов, выявление их невидимых сторон. Классическое наследие – это подход, имеющий фиксированные ценности, а деконструкция раскрывает противоречия, скрытые

под этой фиксированностью. Деконструктивный подход можно ясно увидеть в истории шейха Санана. Этот подход привносит новую интерпретацию и смысловые слои в классическое наследие. Он раскрывает скрытый смысл подслоев классического текста.

Хотя в произведении упоминается персонаж шейха Санана, можно увидеть определенные различия в его действиях и характеристиках по сравнению с другими одноименными произведениями. Через образ шейха автор отразил моральные и социальные проблемы современной эпохи как средство размышления. Изображая внутренние кризисы героя, противоречия на пути веры и любви, основным лейтмотивом повести является то, что человек сталкивается со своими ценностями и в результате находит себя.

Данное исследование примечательно тем, что раскрывает важность единства традиции и современности, а также индивидуальных стилистических различий между классикой и модерном.

***Ключевые слова:*** *классическая литература,суфизм, божественная любовь, Шейх Санан, Фаридуддин Аттар, Гусейн Джавид, Фахри Угурлу*

***Summary***

***Kamala Zeynalli Islamova***

***The story of "Sheikh Sanan" by Fakhri Ugurlu and the classical tradition***

When studying and analyzing classical and modern Azerbaijani literature, we observe the poetics of individual literary types and genres, the issues of evaluating their thematic and stylistic features in the general literary context. In this sense, in the work of Fakhri Uğurlu, there is a serious need to study the path of modern poetic thought against the background of the general theoretical problems of our literature. In his works, it is possible to observe the synthesis of traditional poetic heritage and modern literary style. The article will analyze the quotations created by Fakhri Ugurlu, who are representatives of Azerbaijani and Persian classical literature, benefiting from the creative heritage of masters such as Fariduddin Attar, Huseyn Javid.

The story "Sheikh Sanan" by Fakhri Ugurlu, a representative of postmodernism Azerbaijani prose, is important in modern Azerbaijani literature from the point of view of the artistic reworking of classical poetic heritage. Postmodernism usually approaches the classical heritage through parody, criticism or deconstruction. "Deconstruction" is an approach aimed at criticizing the structure of texts, revealing their invisible aspects. Classical heritage is an approach that has fixed values, and deconstruction reveals the contradictions hidden under this fixity. It is possible to clearly see the deconstructive approach in the story of Sheikh Sanan. This approach brings a new interpretation and layers of meaning to the classical heritage. It uncovers the hidden meaning in the sub-layers of a classic text.

Although the character of Sheikh Sanan is referred to in the work, it is possible to see certain differences in his actions and characteristics compared to other works of the same name. Through the image of the sheikh, the author reflected the moral and social problems of the modern era as a means to reflect. Depicting the hero's internal crises, contradictions on the path of faith and love, the main leitmotif of the story is that a person faces his own values and finds himself as a result.

This study is notable for revealing the importance of the unity of tradition and modernity, along with individual stylistic differences between classics and moderns.

***Key words:*** *classical literature, sufism, divine love, Sheikh Sanan, Fariduddin Attar, Huseyn Javid, Fakhri Ugurlu*

Redaksiya heyətinin üzvü Fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.